**COP29-da Türkiyə pavilyonunun açılış mərasimi keçirilib**

Türkiyənin ətraf mühit və şəhərsalma naziri Murat Kurumun iştirakı ilə COP29-da Türkiyə pavilyonunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Murat Kurum COP29 Azərbaycanda keçirildiyi üçün Türkiyənin burada "bir millət, iki dövlət" prinsipi ilə daha fəal iştirak etdiyini deyib.

"Bundan əlavə, biz bu dəfə iqlim dəyişikliyi ilə bağlı maliyyə mexanizmlərini də müzakirə edəcəyik", - deyə nazir Murat Kurum bildirib.

Daha sonra nazir pavilyon ilə yaxından tanış olub.

**AZƏRTAC**
**2024, 11 noyabr**